# Birmənalı qarşılanmayan qərar

## Media ekspertləri həmişə Azərbaycan dövlətçiliyinə xidmət edən qəzetin kollektivinin işsiz qoyulmayacağına inanırlar

**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2020-ci ilin birinci yarısı üçün elan etdiyi müsabiqə çərçivəsində qəzetlərə maliyyə yardımının göstərilməsi ilə bağlı qərar qəbul edib.**

Maliyyə yardımı ayrılan qəzetlər arasında Azərbaycan və rus dillərində çıxan "Kaspi" və "Kaspiy" qəzetlərinin adı yoxdur. Hər iki qəzetin kollektivi bununla əlaqədar Prezident İlham Əliyevə müraciət ünvanlayıb. Müraciətdə qeyd olunur ki, qəzetə ayrılan maliyyə yardımının hansı səbəbdən dayandırılması ilə bağlı onlara heç bir məlumat verilmir.

Yaranmış vəziyyət ictimaiyyət tərəfindən də birmənalı qarşılanmayıb. Məsələ ilə bağlı "Kaspi" qəzetinə açıqlamalarında ekspertlər öz fikirlərini bölüşüblər.

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı** bildirdi ki, "Kaspi" qəzeti bizim tarixi qəzetlərimizdən biridir: "Azərbaycan media tarixində yeri və mövqeyi olmuş, Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, Əhməd bəy Ağaoğlunun imzası ilə nəşr olunan, Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə işıq üzü görmüş və uzun müddət Azərbaycanda jurnalistikanın formalaşmasında xidmətləri olan, eyni zamanda müstəqillik dövründə sələfinin davamı olan "Kaspi" qəzeti yaşamalıdır. Ən azından, bu mətbuat orqanında 50-yə yaxın jurnalist həmkarımız fəaliyyət göstərir. Bu qəzetdəki həmkarlarımız çox peşəkardılar".

A.Aşırlı qeyd etdi ki, "Kaspi" qəzetinin kollektivi həmişə Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edib. Qəzetdə çalışan həmkarlarımızın mövqeyi həmişə kifayət qədər aydın olub: "Bu kollektivin xətrini həmişə çox istəmişik, yəni yaxın olmuşuq, həmkarlıq münasibətlərimiz olub. İlin-günün bu vaxtında, çətin bir dönəmdə bu qədər jurnalist həmkarlarımızın işsiz qalmağı təbii ki, bizi narahat etməyə bilməz. Şəxsən özüm də çox narahatam. Hesab edirəm ki, cənab Prezident bu məsələyə həmişə olduğu kimi özünün humanist yanaşmasını ortaya qoyacaq və "Kaspi" qəzetinə maliyyə vəsaitinin ayrılması üçün öz dəstəyini göstərəcəkdir".

**"Demokratik Jurnalistər Liqası"nın sədri Yadigar Məmmədli** bildirdi ki, KİVDF 10 ildən çoxdur bir sıra mətbuat orqanlarına maliyyə yardımı ayırır: "Fondun maliyyə yardımı ayrılması ilə bağlı keçirilən sonuncu iclasında bir sıra mətbuat orqanının həmin siyahıda yer almaması cəmiyyətdə böyük rezonans doğurub. Çünki kənarda qalan mətbuat orqanlarına maliyyə yardımının ayrılmaması ilə bağlı hər hansı bir səbəb də açıqlanmayıb. Bilirik ki, "Kaspi" qəzeti Azərbaycanda ictimai rəyə təsir göstərə bilən, Fondun tələb etdiyi kriteriyalara cavab verən, qəzetçilik prinsiplərinə peşəkarlıqla əməl edən kütləvi informasiya vasitələrindən biridir. Ona görə də fond tərəfindən "Kaspi" və "Kaspiy" qəzetlərinə maliyyə yardımı ayrılmaması çox təəccüblə qarşılanıb. Yaxşı olardı ki, fond tərəfindən maliyyə yardımı ayrılmaması ilə bağlı səbəblər ictimaiyyətə açıqlansın, aydınlıq gətirilsin. Təbii ki, bu fondun verdiyi qərardır, amma ictimaiyyət nümayəndəsi olaraq çox istərdik ki, "Kaspi" qəzetinin də adı maliyyə yardımı alan qəzetlər sırasında olsun".

Y.Məmmədli vurğuladı ki, KİVDF bu məsələyə ya yenidən baxmalı, ya da hansısa bir yolla məsələyə aydınlıq gətirməlidir: "Hər halda, bunun bir çıxış yolu olmalıdır. Xüsusilə, mən tərəfdarıyam ki, "Kaspi" və "Kaspiy" qəzetləri dövlətin maliyyəsindən yararlana bilsin. Əks halda, qəzetlər çox pis duruma düşəcəklər. Qeyd etdiyim kimi, bu qəzetlər kütləvi informasiya vasitələri sırasında öz dəsti-xətti olan mətbu orqanlardır".




**Media üzrə ekspert Azər Həsrət** "Kaspi" qəzetinin kollektivinin Prezident İlham Əliyevə ünvanladığı müraciətlə tanış olduğunu diqqətə çatdırdı: "Əlbəttə ki, KİVDF-nin "Kaspi" və "Kaspiy" qəzetlərinə maliyyə yardımı ayırmaması şəxsən məni də narahat edən məqamlardan biridir. Bilirəm ki, burada bir anlaşılmazlıq var. Çünki "Kaspi" tarixi qəzetlərimizdən biridir, üç əsrin qəzetidir. Bu qəzet bütün fəaliyyəti dövründə Azərbaycan dövlətinin, dövlət başçısının yürütdüyü siyasəti yaxından dəstəkləyən bir qəzetdir. Ümumiyyətlə, bu qəzetin kollektivindəki jurnalistlərin böyük əksəriyyətini şəxsən tanıyıram və bilirəm ki, o insanların hər biri dövlətə, Prezidentə sadiq insanlardır". A.Həsrətin söxlərinə görə, əlbəttə ki, belə bir, xüsusilə yaradıcılıq məsələləri fərqli istiqamətdə seçilən bir qəzetin maliyyə dəstəyindən məhrum edilməsi yaxşı bir şey vəd eləmir: "Biz bilirik ki, Azərbaycan prezidenti hər zaman jurnalistlərin dostu olub və olmağa da davam edir. Təbii ki, dövlət başçısına edilən müraciətin cavabsız qalmayacağına əminəm. Yəqin ki, ortada bir anlaşılmazlıq var və əminəm ki, o aradan qalxar. İstənilən halda "Kaspi" qəzeti, özüm kimi əminəm ki, Azərbaycan dövlətinə, Prezidentə və ümumiyyətlə ölkədə həyata keçirilən siyasətə hər zamankı kimi sadiq olaraq davam etdirəcək. Düşünürəm ki, belə bir qəzetə maliyyə ayrılması yerinə düşərdi".

**BƏXTİYAR**